# Prezident İlham Əliyevə inam rifah və əmin-amanlığın başlıca təminatıdır

***Sosial Tədqiqatlar Mərkəzi "İnam indeksi" jurnalının 5-ci sayında "Prezidentin fəaliyyəti ictimai rəydə" sorğu sənədində yer alan bəzi nəticələri ictimailəşdirib. Mərkəzin məlumatına görə, Prezident İlham Əliyevin müxtəlif istiqamətlərdəki fəaliyyəti respondentlər tərəfindən qiymətləndirilib. Belə ki, dövlətimizin başçısının ordu quruculuğu və ordunun təkmilləşdirilməsi, xarici siyasət, sosial müdafiə, qeyri-neft sektoru və kənd təsərrüfatının inkişafı, kadr islahatları, korrupsiyaya qarşı mübarizə, əhalinin sağlamlığının qorunması, əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsi, pandemiyanın mənfi təsirlərinin aradan qaldırılması və mədəni sahədəki islahatlar istiqamətlərindəki fəaliyyəti respondentlər tərəfindən "çox yaxşı" qiymətləndirilib.***

Sosial Tədqiqatlar Mərkəzinin sorğuda Azərbaycan Prezidentinin ordu quruculuğu və ordunun təkmilləşdirilməsi ilə bağlı fəaliyyətini önə çəkməsi təsadüfi deyil. Çünki Ermənistanın ötən il sentyabrın 27-də növbəti hərbi təxribatından sonra Silahlı Qüvvələrimizin 44 gün çəkən əks-hücum əməliyyatının noyabrın 10-da tarixi qələbəmizlə başa çatması və beləliklə, xalqımızın 30 illik torpaq həsrətinə son qoyulması, tarixi ədalətin bərpası dövlətimizin başçısının digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində gerçəkləşdirdiyi müdrik siyasətinin məntiqi nəticəsi idi.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 18 il ərzində ordu quruculuğu daim diqqət mərkəzində saxlanılıb. Azərbaycan gənclərində Vətənə, orduya dərin sevgi hissi aşılanıb. Bu, İkinci Qarabağ müharibəsində də özünü qabarıq büruzə verdi. Dövlətimizin başçısı aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda sözügedən məsələ ilə bağlı ətraflı bəhs edərək, bildirdi ki, Birinci və İkinci Qarabağ müharibələri arasında fərqdən də bu, aydın görünür: "İnsanlar növbələrdə dayanırdı. Biz qismən səfərbərlik elan etmişdik və buraya müəyyən yaş kateqoriyasına aid vətəndaşlar daxildir. Həmin meyara cavab verməyən vətəndaşlarımız isə gileylənir, məktublar yazırdı ki, məni niyə aparmırlar? Mən də gedib döyüşmək, Vətənimizi qorumaq istəyirəm. Hesab edirəm ki, bu, bizim Qələbəmizi şərtləndirən əsas amil idi.

*(ardı 7-ci səhifədə)*

# Prezident İlham Əliyevə inam rifah və əmin-amanlığın başlıca təminatıdır



(əvvəli 1-ci səhifədə)

Əlbəttə, biz güclü ordu qurmuşduq, təlimlər keçirirdik, müasir silahlar əldə etmişdik ki, bu, müharibədə bizə Qələbə qazanmağa və əsgərlərimizin həyatını qorumağa kömək etdi. Bu silahlar olmasaydı, itkilərimizin sayı daha çox olardı. Ermənistan ordusu ilə müqayisədə bizim itkilərimiz 2.5-3 dəfə az olmuşdur…”.

Azərbaycan Prezidentinin vurğuladığı kimi, Vətən müharibəsindəki qələbəmizdə döyüşçülərimizin vətənpərvərlik ruhunun son dərəcə yüksək olması ilə bərabər, Silahlı Qüvvələrin güc-qüdrəti də önəmli rol oynayıb. Çünki ordumuz ən müasir silahlarla, hərbi texnika və müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Silahlı Qüvvələrimizin hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə inkişafı istiqamətdə son 18 ildə uğurlu siyasət həyata keçirilib. Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək kimi mühüm vəzifəni də uğurla reallaşdırıb.

Ordu quruculuğu istiqamətində həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun güc-qüdrətinin indiki səviyyəyə çatmasının təsadüfi olmadığını da xüsusi vurğulayıb: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və müharibədə tapşırığı şərəflə, vicdanla, cəsarətlə yerinə yetirdi. İkinci Qarabağ müharibəsində əks-hücum əməliyyatı zamanı bizim Silahlı Qüvvələrimiz vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatını uğurla reallaşdırdı. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edildi”.

Sosial Tədqiqatlar Mərkəzinin sorğusunda Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonrakı dövr üçün respondentlərin əsas gözləntiləri ölkəmizin siyasi-iqtisadi gücünün artacağı və regionda mövqeyinin güclənəcəyi, düşmən ölkə üzərində təsirinin daha da artacağı olub. Əslində, sorğu iştirakçılarında belə bir qənaətin formalaşması təbiidir. Çünki İkinci Qarabağ müharibəsindən ötən müddət ərzində Azərbaycan qalib ölkə kimi beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirib. Beynəlxalq təşkilatlar ölkəmizin haqq mübarizəsini dəstəkləyib. Bununla bərabər, Azərbaycan iqtisadiyyatı dinamik inkişaf yolu ilə sürətlə irəliləyib. Düşməndən təmizlənən torpaqlarda bərpa-quruculuq işlərinə başlanılıb. Artıq bu istiqamətdə uğurlu nəticələr əldə olunub.

Bu gün düşməndən azad edilən torpaqlarda minatəmizləmə əməliyyatları ilə paralel olaraq, əsas infrastruktur layihələri də reallaşdırılır. Ərazilərin elektrik təchizatı istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilir. Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər uğurla gedir. Bununla paralel olaraq Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Bu yol Zəngəzur dəhlizinə qədər uzanacaq və artıq işlər cədvəl üzrə görülür.

Qarabağın su təsərrüfatı, meliorasiya sistemi demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Suqovuşan Hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları işləksiz haldadır. Həmin infrastruktur obyektlərinin bərpası üçün Tədbirlər Proqramı hazırlanaraq, yaxın vaxtlarda icrasına başlanılması nəzərdə tutulur.

Füzuli və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi də sürətlə aparılır. Yaxın gələcəkdə üçüncü hava limanının isə Laçın rayonu ərazisində salınacağı nəzərdə tutulur.

Prezident İlham Əliyev bərpa olunan yaşayış sahələrində müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqini xüsusi diqqət mərkəzində saxlayır. Bu isə Qarabağın yaxın gələcəkdə “ağıllı region” kimi dünyada tanınacağına əlverişli şərait yaradır. Bu baxımdan Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərində ilk olaraq “ağıllı kənd” layihəsinin həyata keçirilməsi mühüm önəm daşıyır.

Bütün bunlarla bərabər, onilliklərlə davam edən Ermənistan işğalı zamanı yerlə yeksan edilən tarixi, mədəni və dini irsimiz bərpa olunur.

Şuşa şəhərində reallaşdırılan geniş miqyaslı quruculuq işləri çərçivəsində məscidlər, tarixi abidələr, məqbərələr, ev-muzeyləri, eləcə də Qazançı kilsəsi bərpa edilir. Bu yenidənqurma işləri Şuşanın tarixi simasının bərpası məqsədilə məhz orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir.

Yeri gəlmişkən, onu da vurğulayaq ki, Şuşadakı Qazançı kilsəsinin 200 metrliyində “İsgəndər M” raketinin qalıqlarının tapılması və xoşbəxtlikdən faciə baş verməməsi onu göstərdi ki, bu ölümcül silahla Ermənistan bütün şəhəri, o cümlədən “dəyər verdiyi” kilsəni belə məhv etməyə hazırdır.

Prezident İlham Əliyevin tarix və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyətinə münasibət bildirən respondentlərin 73,9 faizi düşünür ki, Prezidentin Azıx mağarasına getməsi işğaldan azad edilmiş bütün ərazilərimizdəki tarix və mədəniyyət abidələrinin bərpa ediləcəyindən xəbər verir.

Bir sözlə, doğma yurd-yuvalarından didərgin düşən soydaşlarımız bu gün Böyük Qayıdışın astanasındadırlar. Dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilən rayonlara səfərləri zamanı etdiyi çıxışlarda səsləndirdiyi fikirlərdə də bu məqam xüsusi yer tutur. Azərbaycan Prezidenti vurğuladığı kimi, necə birlik, həmrəylik göstərib torpaqlarımızı azad etdik, həmin birlik sayəsində də bərpa, quruculuq işlərini həyata keçirəcəyik. Ərazilərimiz bərpa planına uyğun olaraq yenə də əvvəlki vəziyyətinə qayıdacaq, torpaqların potensial imkanından istifadə edilməklə regional inkişaf proqramlarının uğurlu icrası daha da sürətlənəcək, Qarabağ cənnət məkana çevriləcək.

Sorğuda iştirak edənlərin 68,9 faizi dövlətimizin başçısını Azərbaycan mədəniyyəti və tarixi ilə bağlı ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi görür. Respondentlərin 67,8 faizinin fikrincə, Prezidentin Şuşada Natəvanın abidəsinin açılışında iştirak etməsi, Vaqifin büstünü və məqbərəsini ziyarət etməsi Qarabağa, eyni zamanda, bu əzəli, əbədi torpağımızın tarixi mədəniyyətinə, irsinə xüsusi diqqətinin təzahürüdür.

Onu da qeyd edək ki, sorğuda iştirak edən 67,2 faiz respondent belə bir qənaətdədir ki, bu, Azərbaycanın tarixi-mədəni irsinə hörmətin, sevginin və qayğının, 61 faizi isə Azərbaycanın öz tarixi və əzəli ərazilərinə sahibliyinin göstəricisidir.

Bax, elə buna görə də sorğuda iştirak edən respondentlərin 81,8 faizi postmüharibə dövrü üçün Qarabağda Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) müsbət qiymətləndirib.

Nəhayət, sorğuda diqqətçəkən bir məqama da toxunmaq istərdik. Prezidentin Qələbə tonqalını Şuşada Cıdır düzündə qalamasını 73, 9 faiz respondent qələbə, 72 faizi şəhidlərimizin qanı ilə qazanılmış Şuşa zəfərinin təntənəsi/qələbə simvolu, 65,2 faizi Şuşanın Azərbaycanın mənəvi-mədəni paytaxtı olmasının dünyaya nümayişi, 64,7 faizi vətənpərvərlik, 62,2 faizi torpaq və bayraq sevgisi, 58,9 faizi Prezidentin dəyər və ənənələrimizə sadiqliyi, 58,9 faizi milli birlik, 58,4 faizi ərazi bütövlüyü, 57,4 faizi həmrəylik, 54,3 faizi tarixi irsin xilası, 49,6 faizi Qarabağda bərpa və quruculuq strategiya və planları kimi dəyərləndirib və bununla dövlətimizin başçısının dünyaya mesajlar verdiyini bildirib.

Respondentlərin sorğuda Prezidentin Qələbə tonqalını Şuşada Cıdır düzündə qalamasını belə yüksək dəyərləndirmələri təsadüfi deyil. Çünki bu şəhər Qarabağın, Azərbaycanın incisidir, mədəniyyət beşiyidir, mədəniyyət paytaxtıdır. Dövlətimizin başçısının vurğuladığı kimi, bu şəhər, bu möhtəşəm qala bizi– xalqımızı dinimizə, milli, mənəvi köklərimizə bağlayır. Deməli, Azərbaycan xalqı öz kökünə bağlı xalqdır. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***